# Məhkəmə hakimiyyətinin müstəqilliyinin Əsas prinsipləri

*26 avqust - 06 sentyabr 1985-ci il tarixlərində Milanda keçirilmiş Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının* Yeddinci *Konqresi tərəfindən*

*06 sentyabr 1985-ci ildə*

*QƏBUL EDİLMİŞDİR*

26 avqust - 06 sentyabr 1985-ci il tarixlərində Milanda keçirilmiş Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının VII Konqresi tərəfindən qəbul edilmiş və Baş Assambleya tərəfindən 1985-ci il 29 noyabr tarixli 40/32 saylı və 1985-ci il 13 dekabr tarixli 40/146 saylı qətnamələrlə təsdiq edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində dünya xalqlarının, xüsusilə hər hansı ayrı-seçkiliyə yol verilmədən insan hüquqlarına və əsas azadlıqlarına hörmətin təşviqində və aşılanmasında beynəlxalq əməkdaşlığa nail olmaq məqsədilə ədalətin təmin oluna biləcəyi şəraiti yaratmaq üçün qətiyyətlə bəyan etdiklərini nəzərə alaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, xüsusilə qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası və qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə baxışı hüququ kimi prinsiplərin təsbit olunduğunu nəzərə alaraq,

İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktların hər ikisinin bu hüquqların həyata keçirilməsini təmin etdiyini, və əlavə olaraq Mülki və siyasi hüquqlar haqqında Paktının da əsassız gecikmə olmadan mühakimə olunmaq hüququnu təmin etdiyini nəzərə alaraq,

Bu prinsiplər haqqında yaranmış təsəvvür və faktiki vəziyyət arasında hələ də uyğunsuzluğun mövcüd olduğunu nəzərə alaraq,

Hər bir ölkədə ədalət mühakiməsinin təşkili və həyata keçirilməsi bu prinsiplərə əsaslanmalı və onların tam şəkildə həyata keçirilməsi üçün səylərin göstərilməli olduğunu nəzərə alaraq,

Hakim səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı normaların hakimlərin bu prinsiplərə uyğun hərəkət etmələrini təmin etmək məqsədi daşımalı olduğunu nəzərə alaraq,

Hakimlərin vətəndaşların həyatı, azadlıqları, hüquqları, vəzifələri və mülkiyyəti ilə bağlı son qərarı verməyə səlahiyyətli olduqlarını nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Altıncı Konqresi, 16 saylı qətnaməsində Cinayətkarlığın Qarşısının Alınması və Mübarizə Komitəsini hakimlərin müstəqilliyi və hakimlərin və prokurorların seçilməsi, peşə hazırlığı və statusu ilə bağlı təlimatların hazırlanmasının prioritet vəzifələr sırasına daxil etməyə çağırdığını nəzərə alaraq,

Bu səbəbdən ilk əvvəl hakimlərin ədalət mühakiməsi sistemindəki rolu və onların seçilməsinin, hazırlanmasının və davranışlarının əhəmiyyətinə diqqət yetirməyinin məqsədəuyğunluğunu nəzərə alaraq,

Üzv dövlətlərə məhkəmə hakimiyyətinin müstəqilliyini təmin və təşviq etmək məsələlərində kömək etmək üçün tərtib edilmiş aşağıdakı Əsas Prinsiplər hökumətlər tərəfindən milli qanunvericilikləri və təcrübələri çərçivəsində nəzərə alınmalı və hörmət edilməli və hakimlərin, hüquqşünasların, icra və qanunvericilik orqanlarının üzvlərinin, eləcə də geniş ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Prinsiplər əsasən peşəkar statusu olan hakimlər üçün tərtib edilmişdir, lakin onlar müvafiq olaraq qeyri-peşəkar hakimlərə də eyni dərəcədə şamil edilir.

## Məhkəmə hakimiyyətinin müstəqilliyi

1. Məhkəmə hakimiyyətinin müstəqilliyinə dövlət tərəfindən təminat verilir və ölkənin Konstitusiyasında və ya digər qanunlarında təsbit edilir. Məhkəmə hakimiyyətinin müstəqilliyinə hörmətlə yanaşmaq və ona əməl etmək bütün dövlət və digər qurumların vəzifəsidir.

2. Məhkəmə orqanları qarşısında duran işləri qərəzsiz, faktlar əsasında və qanuna müvafiq olaraq, hər hansı bir şəxs tərəfindən və ya hər hansı bir səbəbdən birbaşa və ya dolayısıyla edilən hər hansı məhdudiyyət, qanunsuz təsir, niyyət, təzyiq, təhdid və ya müdaxilə olmadan həll edirlər.

3. Məhkəmə orqanlarının məhkəməyə aid olan bütün məsələlərdə yurisdiksiyası vardır və qərar çıxarılması üçün onlara verilmiş işlərin qanunla müəyyən edilmiş qaydada səlahiyyətlərinə aid olub-olmamasını müəyyən etməkdə müstəsna hüquqa malikdirlər.

4. Ədalət mühakiməsi prosesinin həyata keçirilməsinə hər hansı qanunsuz və ya əsassız müdaxiləyə yol verilməməlidir və məhkəmələr tərəfindən çıxarılmış məhkəmə qərarlarına yenidən baxıla bilməz. Bu prinsip məhkəmə qərarlarına yuxarı instansiya məhkəmələri tərəfindən qanuna uyğun olaraq yenidən baxılmasına və ya çıxarılmış hökmlər üzrə cəzaların yüngülləşdirilməsinə və əvəzlənməsinə maneçilik törətmir.

5. Hər kəs qanunla müəyyən edilmiş hüquqi prosedurları tətbiq edən adi məhkəmələrdə və ya tribunallarda mühakimə olunmaq hüququna malikdir. Adi məhkəmələrin və ya məhkəmə orqanlarının səlahiyyətlərini əvəzləmək məqsədilə qanunla lazımi qaydada müəyyən edilmiş hüquqi prosedurları tətbiq etməyən tribunallar təşkil edilməməlidir.

6. Məhkəmə hakimiyyətinin müstəqilliyi prinsipi məhkəmə orqanlarına məhkəmə icraatının ədalətli aparılmasını və tərəflərin hüquqlarına riayət olunmasını təmin etmək hüququ verir və tələb edir.

7. Məhkəmə orqanlarının öz funksiyalarını lazımınca yerinə yetirməsinə imkan verən müvafiq resursları təmin etmək hər bir üzv-dövlətin vəzifəsidir.

## Söz və birləşmək azadlığı

8. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, məhkəmə orqanlarının üzvləri digər vətəndaşlar kimi söz, vicdan, birləşmək və toplaşmaq azadlıqlarına malikdirlər; lakin belə hüquqları həyata keçirərək, hakimlər hər zaman öz vəzifəsinin ləyaqətini və məhkəmə orqanlarının qərəzsizliyini və müstəqilliyini qoruyan tərzdə davranmalıdırlar.

9. Hakimlər öz maraqlarının təmsil edilməsi, peşə hazırlıqlarının təkmilləşdirilməsi və məhkəmə müstəqilliyinin qorunması üçün hakimlər birlikləri və ya digər təşkilatları yaratmaq və onlara qoşulmaq azadlığına malikdirlər.

## Peşə hazırlığı, seçim və təlim

10. Hakim vəzifəsinə seçilmiş şəxslər yüksək mənəvi-əxlaqi keyfiyyətlərə və bacarıqlara, habelə hüquq sahəsində müvafiq hazırlığa və ya ixtisasa malik olmalıdırlar. Hakimlərin seçilməsinin istənilən meyarı onların qeyri-münasib səbəblərə görə təyin edilməməsini təmin etməlidir. Hakimlərin seçimi zamanı onların irqindən, dərisinin rəngindən, cinsindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlakından, doğumundan və ya sosial statusundan asılı olmayaraq ayrı-seçkiliyə yol verilməməlidir; lakin hakim vəzifəsinə namizədin müvafiq dövlətin vətəndaşı olması tələbi ayrı-seçkilik kimi qəbul edilməməlidir.

## Xidmət şəraiti və səlahiyyət müddəti

11. Hakimlərin səlahiyyət müddəti, müstəqilliyi, təhlükəsizliyi, müvafiq məvacib alması, iş şəraiti, pensiyaları və pensiya yaşı qanunla lazımi qaydada təmin edilməlidir.

12. Məcburi pensiya (təqaüd) yaşına çatana qədər və ya əgər varsa, səlahiyyət müddəti başa çatana qədər təyin edilmiş və ya seçilmiş hakimlərin səlahiyyət müddətinə zəmanət verilir.

13. Belə bir sistemin mövcud olduğu yerdə hakimlərin irəli çəkilməsi obyektiv amillərə, xüsusən də qabiliyyətə, mənəvi-əxlaqi keyfiyyətlərə və təcrübəyə əsaslanmalıdır.

14. Aid olduqları məhkəmələrdə hakimlər arasında işlərin bölüşdürülməsi məhkəmə aparatının daxili işi sayılır.

## Peşə sirri və immunitet

15. Hakimlər açıq məhkəmə icraatı istisna olmaqla, vəzifələrinin yerinə yetirilməsi zamanı aldıqları məxfi məlumatlara və öz müşavirələrinə dair peşə sirrini qorumağa borcludurlar və belə məsələlərlə əlaqədar ifadə verməyə məcbur edilməməlidirlər.

16. Milli qanunvericiliyə əsasən hər hansı intizam proseduru, şikayət etmək hüququ və ya dövlət tərəfindən kompensasiya ödənilməsinə xələl gətirmədən, hakimlər öz məhkəmə funksiyalarının icrası zamanı yol verdikləri qeyri-düzgün hərəkət və ya hərəkətsizliklər nəticəsində dəyən maddi zərərlə bağlı onlara qarşı mülki iddialardan şəxsi immunitetə malik olmalıdırlar.

## Tənbehetmə, vəzifədən kənarlaşdırma və azadetmə

17. Xidməti və peşə vəzifələrinin icrası zamanı hakimə qarşı ittiham irəli sürüldükdə və ya şikayət verildikdə, həmin ittihama və ya şikayətə müvafiq prosedura əməl edilərək təxirə salınmadan və qərəzsiz baxılmalıdır. Hakimin işə ədalətli baxılması hüququ vardır. Hakim tərəfindən başqa tələb olmadıqda, ilkin mərhələdə şikayətə baxılması gizli saxlanılmalıdır.

18. Hakimlər yalnız xidməti vəzifələrini yerinə yetirə bilmək qabiliyyətinə malik olmadıqda və ya tutduqları vəzifəyə uyğun olmayan davranışlarına görə həmin vəzifədən kənarlaşdırıla və ya azad edilə bilərlər.

19. Bütün tənbeh tədbirləri, vəzifədən kənarlaşdırma və ya azad etmə prosedurları məhkəmə davranışının qəbul olunmuş qaydalarına uyğun olaraq müəyyən edilməlidir.

20. İntizam tənbehinin tətbiq edilməsi, vəzifədən kənarlaşdırılma və ya azad edilmə barədə qərarlar müstəqil yoxlamanın predmeti olmalıdır. Bu prinsip yuxarı məhkəmələrin qərarlarına və impiçment və ya oxşar icraat zamanı qəbul edilmiş qanunvericilik qərarlarına tətbiq edilməyə bilər.